Əlavə 1

# UNEC

# Universitet Daxili İki Diplom Proqramı (UDİD)



**Bakı - 2017**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na, "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"na, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları"na və Avropa Kredit Transfer Sisteminə uyğun olaraq hazırlanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 348 Saylı "Ali Təhsil Müəssisələrinin Bakalavriat və Magistratura Səviyyələrində Kredit Sistemi ilə Tədrisin Təşkili Qaydaları"ı haqqında qərarının 3-cü maddəsinin 3.2. bəndinin 3.2.6. yarımbəndinə əsasən -*"Tələbəyə bakalavriat səviyyəsində gələcək peşə fəaliyyətində istifadə etməsi və ya oxşar ixtisas üzrə (təhsil proqramında tədrisi nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 70 faizi eyni olduğu halda) əlavə təhsil alması məqsədi ilə bu Qaydaların 3.2.5-ci yarımbəndinin tələbləri gözlənilməklə, ödənişli əsaslarla müvafiq ixtisasların fənnini (fənlərini) seçmək hüququ da verilir. Bu şərtlərlə əlavə təhsil alanlara həmin ixtisas üzrə bakalavr dərəcəsi və müvafiq diplom verilir."*

1.2. Bu qaydalar Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC-də) "Universitetdaxili İki Diplom Proqramının (UDİD) " açılması, proqrama müraciət, qəbul, təhsil alma və bitirmə şərtlərini müəyyən edir.

## 2. PROQRAMIN MƏQSƏDİ

2.1. UDİD Proqramının məqsədi bakalavriat səviyyəsində qəbul olunduğu ixtisaslarda müvəffəqiyyətlə təhsil alan tələbələrə təhsil aldıqları ixtisasla yanaşı ikinci ixtisas üzrə də əlavə təhsil almaqla özlərini rəqabətədavamlı mütəxəssis kimi yetişdirmək, gələcəkdə əmək bazarında layiqli yer tutmaq və onun tələblərinə çevik uyğunlaşmaq imkanı yaratmaqdan ibarətdir.

## 3. PROQRAMIN AÇILMASI

3.1. UNEC-də hər hansı iki ixtisas üzrə UDİD Proqramının açılması üçün həmin ixtisasların təhsil proqramlarında nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 70 %-i eyni olmalıdır. UDİD Proqramının tətbiq olunduğu ixtisasların siyahısı UNEC-in Elmi Şurasının qərarı ilə təsdiq edilir.

3.2. Bu qərar əsasında UDİD Proqramının açılacağı fakültlərdə (mərkəzlərdə) ixtisaslar üzrə yerlərin sayı, xüsusi şərtləri (varsa), fənlərə ayrılmış kreditləri əks etdirən tədris planları hazırlanaraq fakültə elmi şuralarına təqdim edilir.

3.3. Açılmaq üçün təklif edilən proqramları fakültə Elmi Şurası müzakirə edərək qərar qəbul edir və bu qərarı təsdiq olunmaq üçün UNEC rektoruna təqdim edir.

3.4. UDİD Proqramının açılması haqda qərar UNEC rektoru tərəfindən təsdiq olunduqdan sonra elan olunur.

## 4. PROQRAMA QƏBUL

4.1. UDİD Proqramı açılan fakultələr (mərkəzlər) tərəfindən ixtisaslar üzrə qərul planı, UDİD Proqramının işçi tədris planı və qeydiyyat tarixləri hər tədris ilinin başlanğıcına bir ay qalmış tələbələrə elan edilir.

4.2. Hər bir ixtisas üzrə UDİD Proqramına qəbul planı universitetə həmin ildə bu ixtisasa tələbə qəbulunun 20%-dən çox ola bilməz.

4.4. Tələbə UDİD Proqramına qəbul üçün əsas ixtisas proqramının ən tez üçüncü semestrinin, ən gec isə beşinci semestrinin əvvəlində müraciət edə bilər.

4.5. Müraciət tarixinə qədər bütün təhsil müddətində birinci ixtisas üzrə nəzərdə tutulmuş fənlər üzrə kreditləri qazanmış və ayrı-ayrı fənlərdən müvəffəqiyyət göstəricisi 81-100 bal arasında olan tələbələr proqrama muraciət edə bilərlər.

4.3. Qəbul prosesinin təşkili qaydası universitet tərəfindən əvvəlcədən müəyyən olunur və qəbul planının elanı ilə birlikdə tələbələrə bildirilir. Xüsusi qabiliyyət tələb olunan ixtisaslar üzrə UDİD Proqramı tətbiq

edildikdə qəbul prosesində tələbələrə xüsusi qabiliyyət imtahanı təşkil olunur.

4.6. UDİD Proqramına qəbul üçün tələbələr semestrin başlanğıcına üç həftə qalanadək rektorun adına yazılı formada ərizə ilə müraciət edə bilərlər.

4.7. Semestrin başlanğıcına iki həftə qalanadək müraciətlər qəbul komissiyası tərəfindən qəbul prosesinin təşkili qaydalarına uyğun dəyərləndirilir və proqrama qəbul edilən tələbələrin siyahısı Rektorun əmri ilə rəsmiləşdirilərək elan edilir.

## 5. PROQRAMIN TƏTBİQİ

5.1. UDİD Proqramına qəbul edilən tələbələr üçün, fakültə (mərkəz) tərəfindən əlaqədar ixtisasların təhsil standartları, tədris planları, ixtisas üzrə məzunlarının əldə etməli olduğu bilik, bacarıq və vərdişlər, tədrisi nəzərdə tutulan fənlərin sillabusları dəyərləndirərək UDİD Proqramı üzrə xüsusi tədris qrafikləri hazırlanır. Bu qrafiklər əsasında hər bir tələbə üçün akademik məsləhətçilərin köməyi ilə semestr başlamazdan əvvəl fərdi tədris planları tərtib olunur ki, burada tələbənin həm birinci həm də ikinci ixtisasda dinləməsi tələb olunan bütün fənlər qeyd olunur. UDİD Proqramına qoşulmuş tələbənin bir semestr üzrə dinlədiyi fənlərin kreditlərinin cəmi 38

kreditdən çox ola bilməz. Tələbənin fərdi tədris planında hər iki ixtisas üzrə akademik məsləhətçisinin imzası olur.

5.2. UDİD Proqraminda iştirak ödənişlidir. UDİD Proqramında təhsil alan tələbələrin ikinci ixtisas üzrə dinlədiyi fənlər üzrə təhsil haqqının məbləği fənlərin kredit sayına uyğun olaraq həmin ixtisas üzrə bir kredit üçün nəzərdə tutulmuş təhsil haqqının iki misli həcmində müəyyənləşdirilir.

5.3. UDİD Proqramında iştirak edən tələbələr ikinci ixtisas fənnlərinin kreditlərini yalnız Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) toplamalıdır.

5.4. Tələbə UDİD Proqramı üzrə müvəffəqiyyətsiz olduğu fənni bu fənnin açılacağı ilk semestrdə təkrarlayır. Tələbə müvəffəqiyyətsiz olduğu seçmə fənnin yerinə akademik məsləhətçinin köməyi ilə yeni fənn seçə bilər.

5.5. UDİD Proqramı tələbəsi yay semestrində iştirak edə bilər.

5.6. Əsas ixtisas proqramı üzrə akademik məzuniyyət verilmiş tələbə UDİD Proqramı üzrə də akademik məzuniyyətdə hesab edilir.

5.7. UDİD Proqramı üzrə tələbə üçün ayrı transkript tərtib olunur.

5.8. Tələbənin birinci ixtisas proqramı ilə ikinci ixtisas proqramı ayrılıqda dəyərləndirilməlidir. UDİD Proqramı üzrə nəticələr tələbənin birinci ixtisasdan məzun olmasına təsir etmir. Birinci ixtisasdan məzun olan tələbəyə birinci ixtisas üzrə bakalavr diplomu verilir.

5.9. Əsas İxtisas proqramı üzrə məzun olan və UDİD Proqramını üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 71 və daha çox bal ilə tamamlayan tələbəyə UDİD Proqramı üzrə bakalavr diplomu verilir.

5.10. Əsas ixtisas proqramı üzrə məzun ola bilməyən tələbə UDİD Proqramı üzrə məzun ola bilməz.

5.11. UDİD Proqramı üzrə təhsil alan tələbə ikinci ixtisas üzrə təqaüd müsabiqəsində iştirak edə bilməz.

5.12. UDİD Proqramınında iki ixtisas üzrə təcrübələr ekvivalent qəbul olunduğu hallarda hər iki ixtisas üzrə birgə təcrübə təşkil edilir.

5.13. Əsas ixtisas proqramından məzun olan, lakin UDİD Proqramını başa vura bilməyən tələbələrə, proqramı bitirmək üçün iki semestrədək əlavə müddət verilir.

5.14. UDİD Proqramının iştirakçısının həm birinci, həm də ikinci ixtisas üzrə Yekun Dövlət Attestasiyasından keçməsi məcburidir. UDİD Proqramı üzrə nəzərdə tutulan

fənnlərin kreditlərini müvəffəqiyyətlə toplayan tələbələr ikinci ixtisasın yekun dövlət attestasiyasına yalnız birinci ixtisasın yekun dövlət attestasiyasını müvəffəqiyyətlə keçdikdən sonra buraxılır.

5.15. Birinci ixtisasdan məzun olduqdan sonra birinci ixtisasın aid olduğu fakültə həmin tələbə ilə bağlı müvafiq sənədləri ikinci ixtisasın aid olduğu fakültəyə göndərir və UDİD Proqramına davam edən tələbənin sənədləşmə və qeydiyyat işləri ikinci ixtisas üzrə məzun olana qədər bu fakültə tərəfindən həyata keçirilir.

5.16. Birinci ixtisasdan məzun olmaq şərti ilə UDİD Proqramını tamamlayan tələbəyə ikinci ixtisas üzrə də diplom verilir.

5.17. UDİD Proqramının məzunlarına tələbələrinə birinci və ikinci ixtisas proqramları üçün ayrı-ayrılıqda akademik transkript verilir.

## 6. PROQRAMDAN ÇIXMA

6.1. Tələbə, öz istəyi ilə UDİD Proqramından çıxa bilər.

6.2. UDİD Proqramı üzrə təhsil müddətində tələbənin əsas ixtisas proqramı üzrə ümumi orta müvəffəqiyyət göstəricisinin yalnız bir dəfə 65 bala qədər azalmasına

icazə verilir. Əsas ixtisas proqramı üzrə ümumi orta müvəffəqiyyət göstəricisi ikinci dəfə 65 baldan aşağı düşən tələbə UDİD Proqramından çıxarılır.

6.3. Ardıcıl iki semestr üzürsüz səbəbdən UDİD Proqramı üzrə qeydiyyatdan keçməyən tələbə proqramdan çıxarılır.

6.4. Əsas ixtisas proqramından məzun olduqdan sonra əlavə verilən iki semestrlik müddətin sonunda UDİD Proqramını tamamlaya bilməyən tələbə proqramdan çıxarılır.

6.5. UDİD Proqramından çıxarılan tələbə bu proqrama təkrar qəbul edilə bilməz.